Azərbaycan Respublikası Təhsil Nazirliyi
**Sumqayıt Dövlət Universiteti**
"Folklorşünaslıq" elmi-tədqiqat laboratoriyası

30555

# Azərbaycan folkloru

## *(Ali məktəb tələbələri üçün dərs vəsaiti)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Azərbaycan dili və ədəbiyyatı" bölməsinin 20.02.2008-ci il tarixli, 8 nömrəli iclasının qərarı ilə nəşr edilir.*

Bütün kaprizlərimə səbrlə dözüb qayğısını əsirgəməyən Yusif ağamın Yadigar oğluna ən xoş arzularla

Müəllifdən
7.XI.2008

Bakı - 2008

398
M 51

**Elmi redaktor:** **Azad Nəbiyev,**
*filologiya elmləri doktoru,*
*professor, AMEA-nın müxbir üzvü*

**Rəyçilər:** **Paşa Əfəndiyev,**
*filologiya elmləri doktoru,*
*professor, əməkdar elm xadimi*

**Yusif Aslanov,**
*pedoqoji elmlər namizədi,*
*SDU-nun "Azərbaycan ədəbiyyatı tədrisi metodikası" kafedrasının müdiri*

**Avtandil Ağbaba,**
*filologiya elmləri namizədi,*
*SDU-nun "Azərbaycan ədəbiyyatı" kafedrasının müdiri*

**Məmmədov Ş.H. Azərbaycan folkloru. *"Ziya-Nurlan"*,**
326 səh. Bakı. 2008.

**Tədris vəsaitində ali məktəb proqramına müvafiq mövzuda müəllifin aşıqlarımız, nağıllarımız, dastanlarımızda Xızır İlyas, buta və dərviş, klassiklərimizin yaradıcılığında folklordan istifadə məsələlərini işıqlandıran məqalələri toplanmışdır.**

***Azərbaycan Respublikası Təhsil Nazirliyi***
***Sumqayıt Dövlət Universiteti***
***"Folklorşünaslıq" elmi-tədqiqat laborotoriyası***

$M\frac{4603020000-418}{N\ 098-2008}$

© **Ş. Məmmədov**

# ÖN SÖZ

Hazırda mədəni irsin qorunmasına diqqətin artırıldığı, milli soykökə qayıdıldığı bir zamanda şifahi xalq ədəbiyyatı milli-mənəvi, etik-estetik və tarixi-fəlsəfi dəyərlərin həm tərkib hissəsi, həm də qaynaqlarından biri kimi öyrənilməkdədir. Bu, heç də təsadüfi deyil.

Tarix boyu görkəmli elm, sənət adamları şifahi xalq ədəbiyyatına, xalq yaradıcılığının başqa-başqa sahələrinə tarixi-idraki mənbə, təbliğat vasitəsi kimi yanaşmış, ondan bəhrələnmişlər. İkinci bir tərəfdən, alimlər xalqın tarixini, etnoqrafiya və etik dəyərlərini, estetik baxışlarını, psixologiyasını və pedaqoji görüşlərini öyrənmək üçün ilkin mənbələrdən biri kimi xalq yaradıcılığına istinad etmişlər. Bu maraq və münasibət elmi-texniki tərəqqi əsri adlanan dövrdə də azalıb dəyişməmiş, sabit qalmış, hazırda el ədəbiyyatı problemləri getdikcə daha aktual olmuşdur. "Heç bir humanitar elm — nə etnoqrafiya, nə tarix, nə linqvistika, nə ədəbiyyat tarixi folklor materialları və araşdırmalarsız ötüşmür". (1, s.16)

Azərbaycan şifahi xalq ədəbiyyatı geniş miqyasda araşdırılıb və öyrənilməkdədir. Belə ki, folklorumuzun qədim janrları olan alqış və qarğışlar, sayaçı sözləri və oyunlar, meydan tamaşaları, lətifə və nağıllar, dastanlar, əsatirlər, əfsanələr, türk dilli xalqların folklor ədəbi əlaqələri, ayrı-ayrı dövrlərdə folklorun yazılı ədəbiyyatla əlaqəsi məsələləri H.Araslı, M.H.Təhmasib, N.Seyidov, Ə.Axundov, M.Seyidov, P.Əfəndiyev, A.Nəbiyev, V.Vəliyev, M.Həkimov, B.Abdullayev, T.Fərzəliyev, İ.Abbasov, T.Xalisbəyli, Ə.Saləddin, Ç.Quliyev, H.İsmayılov, N.Xəlilov, S.Rüstəmxanlı, R.Rüstəmzadə, S.Paşayev və b. tərəfindən öyrənilmiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur.

Bu gün Azərbaycan folkloruna maraq və münasibət zamanın tələbləri baxımından yeni məzmun, daha fəlsəfi-sosial məna kəsb etmişdir. Şifahi xalq ədəbiyyatına təfəkkür və təxəyyül

forma, metod və vasitələri işığında yeni baxış keçirilir. Bu onunla əlaqədardır ki, şifahi xalq ədəbiyyatı tarixən, kütləvi təhsil ocaqları, mədəni-maarif müəssisələri, radio, televiziya, qəzet və jurnalların olmadığı geniş bir zaman mərhələlərində xalqın təhsil, təlim və tərbiyə, vasitəsi olmuş, mədəni-sosial mühitdə başlıca yer tutmuşdur. Xalqın əsrlər boyu topladığı zəngin tarixi-həyati təcrübə, empirik bilik obrazlı üslubda, yığcam formalarda şifahi xalq ədəbiyyatında əksini tapmışdır.

Dünya xalqlarının bədii mədəniyyət tarixinin müasirlik baxımından araşdırılması göstərir ki, şifahi xalq ədəbiyyatı ümumiyyətlə, mədəniyyətin qaynaqlarından biri, bəlkə də başlıcası olmuş, kütləvi mədəniyyət yaranıb formalaşdıqdan sonra da bu ədəbi-tarixi funksiyanı daşımışdır. Bu gün də folklor həm bədii yaradıcılıqda mənbə, forma və vasitə kimi rol oynayır, həm də mədəniyyətin daimi komponenti kimi inkişaf edərək zənginləşir.

Şifahi xalq ədəbiyyatımız dünyanın ən qədim xalqlarının folklor sərvətləri ilə həm ideya-mövzu xüsusiyyətləri, poetikası, həm də janrlar sistemi baxımından bir səviyyədə duran bədii-estetik, tarixi-mədəni, fəlsəfi-etik dəyərləri ilə seçilməkdədir. Təsadüfi deyildir ki, Azərbaycan folklorunun "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Əsli və Kərəm" kimi nümunələri haqqında ilk mətbu söz, ilkin toplama və nəşr faktları dünyanın başqa dilli etnoqraf, tarixçi və mütəxəssislərinə məxsusdur. Bu maraq mənsub olduğu xalqın el sənəti ilə müqayisədən doğmuş və təbii ki, həmin psixoloji faktorun təsirilə "Dədə Qorqud"un əlyazması dünya ictimaiyyətinə bəlli olmuş, "Koroğlu"nun ilkin toplanılması başlanmışdır. Azərbaycan folklorunun başqa janrları üzrə toplama və nəşr etmə sahəsində də bu cür tarixi-mədəni faktlar çoxdur. Başqa dilli folklorçu və etnoqrafların diqqətini cəlb edən cəhətlər çox saylıdır və bunların sırasında biri şifahi ədəbiyyat əsərlərində tarixiliyin obyektiv ifadəsidir.

Hər bir xalqın şifahi ədəbiyyatı onun həyatını, psixologiyasını, təbiətini, adət-ənənələrini əks etdirən etibarlı, zəngin bir mənbədir. Şifahi xalq ədəbiyyatında xalqın keçdiyi tarixi inkişaf mərhələləri, mübarizələr, sosial-iqtisadi çətinliklərlə yanaşı, azadlıq, xoşbəxtlik haqqında arzu və istəkləri də öz ifadəsini

tapmışdır. Həyat, təbiət və s. haqqında çoxəsrlik bilik və bacarıqlarını bədii söz vasitəsilə ümumiləşdirən el yaradıcıları xalq sənətinin zəngin növ və janrlarını düzüb qoşmuşlar.

Öz mənşəyi ilə qədim zamanlarla bağlanan xalq poetik yaradıcılığı özlüyündə, ümumiyyətlə, yaradıcılığın bir neçə sahəsini birləşdirir. Bu cəhətdən folklor sintetik bir sənət kimi səciyyələndirilir.

Əsrdən-əsrə, nəsildən-nəslə müqəddəs və dəyərli irs kimi qalan şifahi xalq ədəbiyyatı, hər şeydən əvvəl, tarixlə bağlıdır, onunla əlaqəlidir. Folklorun ən mühüm xüsusiyyətlərindən biri onun kollektiv yaradıcılıq məhsulu olmasıdır. Şifahi şəkildə yaranıb şifahi şəkildə yayılan el sənəti nümunələri, hər şeydən əvvəl, milliliyi, xəlqiliyi, etnopsixologizmi ilə seçilən qiymətli xəzinədir.

Bu topluya dərs vəsaitinə daxil edilmiş elmi-publisistik yazılar müxtəlif vaxtlarda qələmə alınmışdır. Müəllifin bunları bir kitab şəklində çap etdirməsi məqsədyönlüdür: xalq yaradıcılığına ali və orta məktəblərdə geniş yer verilməsi son illər vüsət almışdır. Odur ki, müəllim və tələbələrin bu və ya digər mənbə və ya ədəbiyyata ehtiyacları olur. Çoxillik pedaqoji təcrübə təsdiq edir ki, mövcud ali məktəb dərsliklərinin dəyərini əksiltmədən müvafiq tədris vəsaitlərinin hazırlanıb tələbələrə çatdırılması zəruridir. Tədris vəsaitinin nəşri bununla bağlıdır.

Təbii ki, həyatda kamil şey anlayışı ideal olaraq qalır. Bu vəsaitdə də mübahisə doğuran fikirlər, mənbəyi yaddan çıxıb göstərilməyən cümlə və sitatlar var. Bunlara görə oxuculardan əvvəlcədən üzr istəyirik. Onların xeyirxah niyyətli irad və tövsiyələrini səmimi qəbul edəcəyik.

**Müəllif**
**13.08.2001-**
**13.09.2006**

# HƏR ELDƏ OXUNAN SƏNƏTKAR

1923-cü ildə "Qızıl Şərq" jurnalının 2 və 3-cü saylarında dərc olunmuş "El şairi Qurban" adlı məqalə sənətsevərlərə qeyri-adi bir istedad sahibini tanıtdı. Araşdırıcı Salman Mümtaz topladığı şeirləri təqdim etməklə yanaşı, həm də ancaq aşıqlara bəlli olan el şairi barədə müəyyən fikirlər də qələmə almışdı. Həmin sətirlərdən bəlli olurdu ki, aşıq XVI əsrdə, Şah İsmayıl Xətai zamanında yaşayıb. O, böyük sərkərdə və qüdrətli dövlət başçısına bir şeir də həsr edibmiş.

Salman Mümtaz Qurbaniyə sonralar ikicildlik "El şairləri" kitabında da yer ayırdı. Beləcə illər ötdü və Aşıq Qurbani haqqında araşdırmalar zaman-zaman genişləndirildi. Bu gün bəllidir ki, Aşıq Qurbani "XVI əsr Azərbaycan aşıq şeirinin hələlik bizə məlum olan ilk nümayəndəsidir".

"Qurbani", "Dirili Qurban" kimi qədim və zəngin aşıq sənəti salnaməsində tanınmış ustad sənətkar Şah İsmayıl Xətai dövründə yaşamışdır. Bir müddət şah sarayında ömür sürmüş aşığın vətəni məsələsi mübahisəli olmuşdur. Bəziləri Qurbaninin Güney Azərbaycandakı Diri kəndindən olduğunu söyləmişlər. Sonralar aparılmış araşdırmalar təsdiqlədi ki, Aşıq Qurbani indi düşmən tapdağında qalmış Cəbrayıl rayonunun Diri kəndindəndir. Qədim kənd qəbiristanlığında onun məzarı var.

Qurbani haqqında, onun həyatı barədə ancaq bəzi məqamlar bəllidir. "Qurbani" adlı xalq dastanında ona buta verildiyi, butasının dalınca Gəncəyə yollandığı bildirilir. Sən demə, Gəncə xanının veziri Qurbaninin xan qızı Pəri ilə evlənməsinə razı deyilmiş. O, hər vasitə ilə xana təsir edir. Axırda Qurbani Şah İsmayılın yanına yollanır. O, şaha öz dərdini belə bildirir:

*Mürşidi-kamilim, Şeyx oğlu şahim!*
*Bir ərzim var qulluğuna, şah, mənim.*

*Əziz başın üçün oxu yazğumu,*
*Agah ol halımdan gahbəgah mənim!*

*Dərin-dərin dəryalara boyladı,*
*Xəncər alıb qara bağrım teylədi.*
*Oğlu ölmüş vezir qəza eylədi*
*Gətməz damağımdan dudi-ah mənim.*

*Şair olan dərsin alır pirindən*
*Oxuyub dərsini bilir dərindən,*
*Qolubağlı keçdim Xudafərindən,*
*Üzüm gülməz, heç açılmaz, ah, mənim.*

*Qurban deyir: bahar olur, gülür yaz,*
*Göllərdə üzüşür ördək ilə qaz.*
*Başım təvalladır, üzüm payəndaz,*
*Yoxdur bundan özgə bir mətah mənim.*

Qurbaninin əsrləri arxada qoyaraq bu günümüzə qədər gəlib çatmış şeirlərindən aydınlaşır ki, o, Şah İsmayıla bir neçə şeir həsr edib. Belə şeirlərinin birində o demişdir:

*Mən haq aşiqiyəm, haq yola mail,*
*Kitabım Qurandır, olmuşam qail,*
*Ey mənim sultanım Şah İsmayıl,*
*Dərdimin əlindən fəryada gəldim.*

Ağrılı-acılı bir həyatın ayrı-ayrı məqamları ustad sənətkarın "Gəlmişəm" rədifli qoşmasında belə mənalandırılıb:

*Diri dağlarından, uzaq ellərdən,*
*Əlbəttə ki, bir murada gəlmişəm.*
*Eşqin sitəmindən, çərxin əlindən*
*Bir şahım var, ona dada gəlmişəm.*

*Bülbül idim, ayrı düşdüm gülümdən,*
*Fələk vurdu, cida saldı əlimdən.*
*Qurbaniyəm, Qara vəzir əlindən,*
*Şeyx oğluna şikayətə gəlmişəm.*

Bu qəbildən bənd və misralar göstərir ki, Qurbaninin həyatı

keşməkeşli olub. Folklorşünas Paşa Əfəndiyev onun:

*Biz də qonaq olduq Qarslı Osmana,*
*Yunistək mat qaldıq bəhri-ümmana,*
*Qurbani der: dönsün belə zamana*
*Göydəki ulduzlar ayə dönübdür,* — bəndi əsasında belə fikir yürüdür ki, Çaldıran döyüşündən sonra Türkiyəyə aparılmış sənətkarlar içərisində Qurbani də olmuşdur.

Qurbani irsi haqqında öz təəssüratını qələmə alan S.Mümtaz yazırdı: Qurbani el şairlərinin ən yaxşılarındandır.

"El şairlərinin ən yaxşılarından" olan Qurbani irsi forma və ideya-məzmununa görə çox zəngindir. Belə ki, onun qoşma, gəraylı, divani, təcnis və ustadnamələri bu gün də bədii yaradıcılığa meyl edənlər üçün əsl örnək ola bilər.

Şirin, canlı, obrazlı dilə, insan təfəkkür və təxəyyülünü qanadlandıran bədii təsvir və ifadə vasitələrinə malik Qurbani irsi söz sənətinin əsrarəngiz incilərindəndir. Bu sənət nümunələrində ulu təbiət, onun adi bir gülü, çiçəyi, yaradılmışların əşrəfi olan insan, onun mənəvi və ya zahiri gözəllikləri o qədər dəqiq, o qədər incə, o qədər poetik ifadə olunmuşdur ki, insan heyran qalmaya bilmir.

Bənövşə... Yazın ilkindisində kol dibindən boylanıb özünün bənövşəyi rəngli ətri ilə ruhu təzələyən, könülləri dillendirən bənövşə... Sevənlərin məhəbbətinin nişanəsi, ürəyinin sirrinin elçisi olan, özü məhəbbət həsrətindən boynu bükülü qalmış bənövşə... Və bənövşə Aşıq Qurbani təsvir və tərənnümündə ilahi bir məna, ülvi bir mahiyyət kəsb etmişdir:

*Başına döndüyüm, ay qəşəng pəri,*
*Adətdir dərərlər yaz bənövşəni.*
*Ağ nazik əlinlə bir dəstə bağla*
*Tər buxaq altında düz bənövşəni.*

*Tanrı səni xoş camala yetirmiş,*
*Səni görən aşiq əqlin itirmiş,*
*Mələklərmi dərmiş, göydən gətirmiş,*
*Heyif ki, dəriblər az bənövşəni.*

*Qurbani der: könlüm bundan sayrıdır,*
*Nə etmişəm, yarım məndən ayrıdır?*
*Ayrılıqmı çəkib boynu əyridir*
*Heç yerdə görmədim düz bənövşəni.*

Qurbani həm də gəraylılar yaradıcısı olub. Aşiqin halı, sosial ədalətsizlik, könül dünyasının duyumları aşığın gəraylılarında – 8 hecalı, 4 misralı bəndlərdə o qədər axıcı, təbii və emosional təsvir olunmuşdur ki, insan bu təsirdən yaxa qurtara bilmir:

*Ay ağalar, ay qazılar,*
*Yar yaman aldatdı məni.*
*Əl atdım yarın dəstəsinə,*
*O, kənara atdı məni.*

*Tor atdım çeşmim gölünə,*
*İlişdi sonam telinə.*
*Düşdüm bir nadan əlinə,*
*Aldı, ucuz satdı məni.*

Ustad aşığın çoxlu sayda şeirləri içərisində orijinal təcnisləri, dərin ictimai-fəlsəfi məzmunlu ustadnamələri bu gün də öz bədii-estetik dəyərini saxlamaqdadır. Fikrimizi təsdiqləmək üçün aşığın bir ustadnaməsindən bir bənd təqdim etməklə kifayətlənirik:

*Mərd odur ki, işin tuta mərd ilən,*
*Ər istəsən keç namərddən, ər dilən.*
*Rəmz anlayan, söz düşünən, dərd bilən,*
*Aləmlərdə şöhrətlənir, bəllənir.*

Azərbaycan aşıq sənətinin ən çətin və orijinallıq tələb edən şeir şəkillərindən biri divanidir. Bir divanisində Aşıq Qurbani yenə də Şah İsmayıl Xətaini xatırlayaraq dinləyicisinə əxlaqi-mənəvi keyfiyyət aşılayır: "Bir könlü ki, hörəmmirsən, yıxıb viran eyləmə!" fəlsəfi fikrini çatdırmışdır:

*Fələk, sənlə əlləşməyə bir belə meydan ola!*
*Tut əlimdən, meydan sənin, lütf elə, ehsan ola!*
*Getmiş idim mürşidimə, dərdimə dərman ola!*
*Mən nə bilim mən gəlincə xak ilə yeksan ola!*

*Kölgəsində zülflərinin bir zaman yatmaq gərək,*
*Tabutu sərv ağacından, kəfəni yarpaq gərək,*
*Tez yuyun, tez götürün ki, mənzilə çatmaq gərək,*
*Bari ilahim, necə qıydın bir belə cavan ola?..*

*Bir gülü ki, dərəmmirsən, dərib xəndan eyləmə,*
*Bir könlü ki, hörəmmirsən, yıxıb viran eyləmə.*
*Haqq taladan səda gəldi, Qurbani, çox qəm yemə,*
*Qorxum budu bu gün burda çoxları peşman ola!*

Aşıq Qurbani irsinin ilk araşdırıcısı Salman Mümtaz olmuşdur. Sonralar professor Məmməd Hüseyn Təhmasib "Qurbani" dastanının bir neçə variantını tədqiq etmiş, aşıq və onunla bağlı dastan haqqında dəyərli fikirlər söyləmişdir. 90-cı illərin əvvəllərində aşığın vətənində onun 500 illiyi ilə bağlı "Qurbani saz bayramı" keçirilmişdir. Görkəmli dilçi alim, professor Qəzənfər Kazımov aşığın əsərlərini çapa hazırlamış, dəyərli tədqiqat aparmışdır.

Əsrlər ötüb, Qurbani şeirləri isə, aşığın özünün təcnisinin birində dediyi kimi, öz bədii-estetik, tarix-mədəni dəyərini saxlamaqdadır:

*Qurbani güldəstə bağlar oxuna,*
*Sinəm buta yarın müjgan oxuna.*
*Bir namə yaz, hər divanda oxuna*
*Görən deyə var əllərin, bir də yaz.*

El sənətkarı elə əsərlər yaradıb ki, bu gün də hər yerdə, hər eldə oxunur, oxunacaqdır.

# EL BİRLİYİNİN NƏĞMƏKARI

Abbas Tufarqanlı XVI əsrin sonları, XVII əsrin əvvəllərində yaşayıb yaratmışdır. Həmin dövr Şah Abbasın hakimiyyəti dövrünə təsadüf edir. Odur ki, aşığın bir sıra şeirlərində Şah Abbasın zülmündən şikayət motivləri əksini tapmışdır.

Ustad aşıq şeirlərinin birinin möhürbəndində özü barədə, yeri-yurdu haqqında soraq verib:

*Mən sənə can dedim, sən də mənə can,*
*Alış eşq oduna, mənim kimi yan.*
*Adım Aşıq Abbas, yerim Tufarqan,*
*Gahdan ağla, gahdan yada sal məni.*

Folklorçu alimlər onu öz dövrünün ustad aşığı kimi qəbul ediblər. Onlar Abbas Tufarqanlını "gözəl istedada, coşğun təbə, böyük yaradıcılıq qabiliyyətinə malik sənətkar" kimi dəyərləndiriblər. Professor Paşa Əfəndiyev onu da yazır ki, Aşıq Abbas qəzəl, qəsidə, rübailər də yaratmışdır. Təəssüf ki, bunlar unudulmuş, bu günümüzə gəlib çatmamışdır.

Qədim və zəngin ənənələrə malik sənətin yaradıcılıq və ifaçılıq prinsiplərinə dərindən yiyələnmiş ustad aşıq şeirinin qoşma, gəraylı, təcnis, qıfılbənd kimi formalarında qiymətli nümunələr düzüb qoşmuşdur.

Bu şeirlərdə folklorumuzda xüsusi obraz kimi seçilən dağlara üz tutulur. Bu şeirlərdə sevgi yolunda qəmə yoldaş olan könlün ağrı-acısı, niskili, həsrəti, yanğısı kövrək bir dillə söylənilir. "Eyləsin" adlı şeirində ustad aşıq demişdir:

*Duman, gəl get bu dağlardan,*
*Dağlar taza bar eyləsin.*
*Nə gözlərim səni görsün,*
*Nə könlüm qubar eyləsin.*

Məhəbbət və dostluqda düz ilqarı, etibarı ən başlıca keyfiyyət kimi dəyərləndirən Aşıq Abbas qoşmalarında "könül" bir

poetik obyekt kimi tez-tez anılır. Zamanın, həyatın zülm və əzabından, çərxi-fələyin sitəm və kədərindən şikayətlənən sənətkar öz könlünə üz tutaraq demişdir:

*Nə ağlarsan, nə sızlarsan,*
*Bir dərdi beş olan könlüm!*
*Axırda zünnar bağlarsan,*
*Qəmə yoldaş olan könlüm!*

*...Abbas ağlar arsız-arsız,*
*Dünya, olub etibarsız,*
*Deyirdin dözərəm yarsız,*
*Döz, bağrı daş olan könlüm!*

Aşıq Abbas Tufarqanlı şeirləri əsasında sonralar bu gün də aşıqların repertuarında xüsusi yeri olan "Abbas və Gülgəz" adlı məhəbbət dastanı yaradılmışdır.

Dastanda Abbasın buta alıb Təbrizə yola düşməsindən, Təbrizdə Qənbər adlı bir gənci ölümdən qurtarmasından, Məhəmməd Batman Qılıncın aşıqlarını məğlub etməsindən, Gülgəz Pəri ilə görüşündən, bədniyyət adamların aşiqlə məşuqun qovuşmalarına əngəl törətmələrindən danışılır. Sən demə, Şah Abbas da Gülgəz Pərinin sorağını alıbmış. Odur ki, Allahverdi xanla Dəli Becan Təbrizə gəlir, Batman Qılıncın olmamasından istifadə edib Gülgəz xanımı Şah Abbasa aparırlar. Aşıq Abbas tək-tənha karvanın arxasınca gedir.

Yolda onu aldadıb quyuya salırlar. Bütün bunlar dastandakı şeirlərdə çox təsirli bir dillə ifadə olunur:

*Ağlaya-ağlaya düşdüm yollara,*
*Yar ayrısı dərdü-möhnət, yara yüz.*
*Dərdim oldu əvvəlkinnən beşbetər,*
*Şan-şan oldu qara bağrım, yara yüz.*

*Tutdum yar əlindən bəlkə sağalam,*
*Saqi məstü, saqi sərxoş, saqi lam,*
*Çətin, çətin bu yaradan sağalam,*
*Dərd bir oldu, dərman doxsan, yara yüz.*

*Mən Abbasam, yara qurban yar üçün,*
*Doğra bağrım, kəs ciyərim yar için,*
*Yar oldur ki, bu dünyada yar üçün*
*Yaxa yırta, zülf dağıda, yara üz.*

Çoxlu sınaq və imtahanlardan çıxan Aşıq Abbas öz butasına qovuşur.

Əlbəttə, ustad aşıqların qoşma, ustadnamə və gəraylıları əsasında dastan yaratmaq ənənəsi burada da özünü doğrulddub. Bu gözəl məhəbbət dastanı indi də aşıq yaradıcılığını sevənlər, el sənətinin vurğunu olanlar üçün qiymətli sənət incisi kimi dəyərlidir.

Aşıq Abbas, şeirlərindən də göründüyü kimi, dərin təhsil görmüş bir şəxs imiş. Hətta dastanın bir yerində işarə vurulur ki, Şah Abbas məclisində məhz Abbas kimi Azərbaycan, fars və ərəb dillərini bilən aşıq lazımdır. Ustadın özünün bir şeirindən o da bəlli olur ki, Abbas Tufarqanlı din tarixinə, təbiət haqqında bilgilərə yiyələnmiş bir şəxs imiş. O da Nəsimi kimi soykökünü Adəm ata ilə bağlayır, yerin yeddi qatından sorağı olduğunu söyləyir. "Qul Abbas", "Bayat Abbas" kimi təxəllüslərlə tanınmış aşıq "Səni" rədifli qoşmasında başqa bir təxəllüsünü də bildirməklə, özünü "xərəbatı" kimi təqdim edir:

*Haq da bilir Adəm ata zatıyam,*
*Göyü bilməm, yerin yeddi qatıyam,*
*Şikəstə Abbasam, xərabatıyam,*
*Könül, heç görmədim abadan səni.*

Şeirlərindən bəlli olur ki, ustad aşıq xalqımızın bədii mədəniyyətinə dərindən bələd imiş. Belə ki, onun müxtəlif formalı söz incilərində Şirin, Leyli, Məcnun, Fərhad, şam, bülbül, pərvanə kimi məhəbbət rəmz və simvollarının adları çəkilir. Abbas Tufarqanlı ilin fəsilləri ilə insanın ömür dolaylarını ustalıqla əlaqələndirir. Gördüyü təbiət gözəlliklərini vəsf edir, bu gözəlliklərdən vəcdə gəlir. Və bu hiss-duyğu axarı şirin, yığcam bir dillə, çox böyük ustalıqla bir tablo kimi rəsm edilir. "Vaxtıdır" adlı şeirində bu aydın şəkildə təsvir edilmişdir:

*Budu gəldi bahar fəsli*
*Dağların lala vaxtıdı.*
*Açılıbdı qızılgüllər,*
*Bülbülün bala vaxtıdı.*

Aşıq sənətimizi saf, sadə və obrazlı dili olan əsərləri ilə zənginləşdirmiş Qul Abbasın irsində ustadnamələr də xüsusi əhəmiyyət kəsb edir.

Dərin həqiqətləri, həyat hikmətlərini, insan ağlının qüdrətini, mənəvi-əxlaqi saflığın ülviyyətini həkimanə bir üslubda təsvir, tərənnüm və təbliğ edən ustadnamələr aşığın dünyagörüşü, ağıl və fərasəti haqqında təsəvvür yaradır. Bu yönümdən Aşıq Abbasın 8 benddən ibarət olan ustadnaməsi diqqəti cəlb edir. "Adam var ki" sözləri ilə başlanan "Bəyənməz" adlı bu şeirdə ustad görüb tanıdığı, yoldaş olub sınadığı insanları, Dədə Qorqud qadınları dörd qrupa böldüyü kimi, təsnif etmiş və demişdir:

*...Adam var ki, adamların naxşıdı,*
*Adam var ki, anlamazdı, naşıdı,*
*Adam var ki, heyvan ondan yaxşıdı,*
*Dindirərsən heç insanı bəyənməz...*

*Adam var, dəstinə verəsən güllər,*
*Adam var gözünə çəkəsən millər,*
*Tufarqanlı Abbas, başına küllər,*
*Nə günə qalmısan, qarı bəyənməz.*

Şeirlərindən bu aydın olur ki, Abbas Tufarqanlı "Dədə Qorqud" boylarından xəbərdar imiş. Məsələn, "Dədə Qorqud" dastanlarının müqəddiməsində belə fikir söylənilir:

*Kül təpəcik olmaz (Kürəkən oğul olmaz).*
*Qara eşşək başına yüyən vursan, qatır olmaz.*
*Qaravaşa don geydirsən də, qadın olmaz.*

Aşıq Abbasın "Sındırar" adlı ustadnaməsindəki aşağıdakı misralar bu "Dədə Qorqud" söyləmələri ilə necə də səsləşir:

*Zibil təpə olsa, küllük dağ olmaz,*
*Yel əsəndə alçaqlara yendirər.*

Ümumiyyətlə, Aşığın hələ 3 əsr bundan əvvəl dediyi sözlər

öz məna tutumunu, bədii-fəlsəfi-estetik dəyərini bu gün də saxlayaraq o taylı-bu taylı soydaşlarımızı düşündürən həqiqətdən soraq verir. Aşığın ustadnamələri soydaşlara ulu həqiqətləri çatdırır:

*Bəd övladı əzəl başdan tanıram,*
*Çör-çöp yığar, yad ocağın yandırar.*
*Səhər durar, ar-namusun gözləməz,*
*Suyu tökər, öz ocağın söndürər...*

*...Abbas bu sözləri deyər sərindən,*
*Arxı vurun suyu gəlsin dərindən,*
*Söz bir olsa, dağ oynadar yerindən,*
*El bir olsa, zərbi gərən sındırar.*

# "MÜRĞİ-SƏMƏNDƏRİN AŞİNASI"

Bu gün Quzey Azərbaycanda adı tez-tez çəkilən bir yaradıcı qurum var: Aşıq Pəri məclisi... Azərbaycanın yaradıcı və ifaçı qadın aşıqlarını özündə birləşdirən bu məclisin neçə illik salnaməsi var. Azərbaycanın Tovuz, Qazax, Gədəbəy bölgələrindən, Muğan və Şirvan zonalarından olan saz-söz sevərlər bu məclisin üzvləridir. Onlar el şənliklərində, radio və televiziya verilişlərində çıxış edirlər. Şirin çalğıları, məzmunlu şeirləri ilə könülləri sevindirən bu el qızlarını ulu sənətkar Aşıq Pərinin adını daşıyan məclis birləşdirib, doğmalaşdırıb.

Kim olub Aşıq Pəri?.. Onun şeirlərindən bizə nə qalıb?

*Mürşidi-kamildən dərsimi aldım,*
*Can götürüb bu meydana gəlmişəm,*
*Mürği-səməndərin aşinasıyam,*
*Od tutuban yana-yana gəlmişəm...*

Bu sətirlərin müəllifi, XIX əsrin birinci yarısında yaşayıb-yaratmış Aşıq Pəri haqqında F.Köçərli, akademik Feyzulla Qasımzadə və professor Əzizə xanım Cəfərzadənin... kitab və məqalələrində müəyyən məlumat verilmişdir.

Bəlli olanlar bunlardır ki, XIX əsrin aşıq şeirinin ən görkəmli nümayəndələrindən biri olmuş Aşıq Pəri Arazkənarı obalardan birində – Maralyanda dünyaya göz açıb. Sonra Qarabağın gözü olan Şuşaya gedib. Təxmini araşdırmalara görə, 1810-11-ci illərdə dünyaya gəlmiş Aşıq Pəri çox gənc ikən vəfat edib.

Professor Əzizə Cəfərzadə yazır ki, Aşıq Pəri olduqca gözəl, rəvan təbli, ağıllı və hazırcavab olmuşdur. Bu cəhətlərilə o, tezliklə Qarabağda yaşayan Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Tufeyli kimi yaradıcıların diqqətini cəlb etmişdir. Onlar Aşıq Pəri ilə deyişmiş, hər dəfə də ilahi qadın təbi qarşısında məğlub olmuşlar.

Bu deyişmələrdə Aşıq Pəri rəqiblərini sözün qüdrəti, sətirlərin məna tutumu ilə "məşhər ayağına çəkmişdir". Onun gözəl-

liyi və təbi qarşısında məğlub olanlara sənətkar həmişə incə bir mənа ilə gülmüşdür.

Cəfərqulu xan Nəvanın:

*Sən, ey Pəri, məlik pərvərdəsisən,*
*Həmişə deyirdik biz çakər ona.*
*Nədən ötrü bizdən kənar gəzərsən,*
*Nə mane olubsan sərasər ona?* — məzmunlu bəndinə qadın sənətçi belə cavab vermişdir:

*Nə şayistə bu sözləri danışmaq?*
*Büsyardır mərdi-xidmətkar ona.*
*Saymırdın sultanı, xanı, paşanı,*
*Nə şah bir söz deyər, nə sərdar ona,*
— deyə cavab vermişdir.

Deyişmələr göstərir ki, Aşıq Pəri sözdən ustalıqla istifadə etmiş, hər kəlmənin yerini bilmişdir. O, aşıq şeiri üslubunda lirik şeirləri ilə tanınmış istedadlı şairə kimi səciyyələndirilir. Araşdırmalarda da təsdiq olunduğu kimi, onun şeirlərində saf məhəbbət, ana təbiət, insani xüsusiyyətlər sırasında ədalət, dostluq, gözəllik və s. keyfiyyətlər tərənnüm və təbliğ olunmuşdur.

30855

Onun şair Mirzə Həsən Mirzaya yazdığı şeir ənənəvi poetik fiqur və bədii surətlərlə cilalanmışdır. Xalq dilinin poetik imkanlarından ustalıqla istifadə bu şeirdə də özünü göstərir:

*Katiblərin şahı, dəftər içində,*
*Qələm ilə nazik əllər oynaşı.*
*Fitnəli, fellisən, nazü-qəmzəli,*
*Dəhanında şirin dillər oynaşır.*

*Eşqinin əlindən gedərəm dada,*
*Dərdim olub gündən-günə ziyada,*
*Şiveyi-rəftarın düşəndə yada*
*Bağrımın başında millər oynaşı.*

*Dad elərəm, haray naşı əlindən,*
*Yandı ciyər eşq ataşı əlindən,*

*Mən nə deyim gözüm yaşı əlindən,*
*Üzüşür sonalar, göllər oynaşı.*

*Adam var dolanır məkrin içində,*
*Adam var dolanır zikrin içində.*
*Sənin kamalında, fikrin içində,*
*Əcayib, qərayib hallar oynaşı.*

*Pəriyəm, xəlq ara olmuşam bacı,*
*Kimsənin kimsəyə nə ehtiyacı.*
*Bəlxün, Buxaranın, Hindin xəracı,*
*Zənəxdanda siyəh xallar oynaşı.*

Aşıq Pərinin bizə gəlib çatan şeirlərinin ümumi sayı 40-50-yə çatır. Bu şeirlərin bir qismində zəmanədən, dünyanın zülmündən, insanların vəfasızlığından acı-acı gileylənilir.

Dünyasını tez dəyişmiş sənətkarın şeirləri içərisində bayatı formalı incilər də xüsusi yer tutur.

Bu bayatılardakı cinaslar, dərin məna çalarları onları klassik bayatıların səviyyəsinə qaldırır.

Aşıq Pəri şeirlərindən bir qismində şikayət motivləri əksini tapmışdır. Bu baxımdan "Eylədin" adlı gəraylı da maraq doğurur:

*Zalım şəcər dad əlindən,*
*Sən ha nahaq qan eylədin!*
*Zülmilə könlüm şəhrini,*
*Gör necə viran eylədin!*

*Saymadın sultanı, xanı,*
*Eyləyibsən nahaq qanı,*
*Badam kimi növcavanı,*
*Yer ilə yeksan eylədin!*

*Necə qıydın gülzarına,*
*Pünhan keçən iqrarına,*
*Saldın yollar kənarına,*
*Dörd yanın al qan eylədin.*

*Pərinin dərdi tüğyandı,*
*Sakin yeri Maralyandı,*
*Gülüm qonçasında yandı,*
*Bülbüllər fəqan eylədi!*

Azərbaycan torpağı neçə-neçə şair qadınlar yetirib. Sənətsevər xalqımız onların əsərlərini yaddaşda yaşadıb, əsrlər boyu dil əzbəri edib. Sənətkar ömrü cismani ölümdən sonra əsərlərində qalan ürək sözü, qəlb duyumları ilə davam edir. Aşıq Pəriyə də belə bir tale qismət olmuşdur.

# AŞIQ ƏLƏSGƏR

## *(Həyatı və yaradıcılığı haqqında bəzi qeydlər)*

Azərbaycan söz sənəti tarixi ulu olduğu qədər də zəngindir. Bu sənət dünyamızı ulduzlu kəhkəşana bənzətmək olar. Aylı gecələrdə sayrışan ulduzların hər birinin öz nur payı var. Sənət dünyamızda da belədir. Azərbaycan ədəbiyyatı tarixi ədəbi məktəb yaratmış qüdrətli sənətkarları ilə məşhurdur, zəngindir. El ədəbiyyatı bu söz sənətinin ilkin qaynağı olmuşdur. Azərbaycan ədəbiyyatının başlanğıcı olmuş şifahi xalq ədəbiyyatının bir qolu aşıq yaradıcılığıdır.

Aşıq Azərbaycan xalqının ən çox hörmət bəsləyib sevdiyi, inanıb ümid yeri bildiyi bir sənət sahibidir.

Aşıq el anası sayılıb, aşıq el şənliklərinin yaraşığı, həyat eşqini ürəklərdə sönməyə qoymayan bir müqəddəs şəxsiyyət səviyyəsində olub. Azərbaycan aşıq sənəti salnaməsində onlarca ustadın adı var: Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Ağ Aşıq, Aşıq Ələsgər...

***

*Göyçə mahalında — o Ağkilsədə*
*Qaraca bir oğlan dünyaya gəldi.*
*Bu çirkin uşağa hamı gülsə də,*
*Anası söylədi: — Balam gözəldi...*

*"Cibə tökürlər ki, qara kişmişi",*
*Onlar nə dərd bildi, nə də qəm yedi.*
*Tayfanın başçısı Alməmməd kişi,*
*Əyilib nənniyə: "Ələsgər" — dedi.*

*... Aylar bir-birini qovub gətirdi,*
*Hər gün buğda boyu böyüdü uşaq.*
*Demə ki, daddığı yağlı fətirdi,*
*Yedi hər nə gəlsə o, daşdan yumşaq.*

*Axdı Ələsgərin, axdı gur səsi,*
*Qayalar səsləndi, dağlar oynadı.*
*Onun zəngüləsi, onun nəğməsi,*
*Qalxıb bulud kimi ərşə dayandı.*

*...Yüz il dövran sürən Aşıq Ələsgər,*
*Min-min məclislərə yaraşıq oldu.*
*Çoxları saz tutub gəlib-getdilər,*
*Ələsgər zülmətdə gur işıq oldu.*

***

Ələsgər Alməmməd oğlu 1821-ci ildə qədim Oğuz yurdlarından olan Göyçənin Ağkilsə kəndində anadan olmuşdur. Çoxuşaqlı ailəni dolandıra bilməyən Alməmməd kişi Ələsgəri kəndin ağası Kəblə Qurbana nökər vermişdir.

Kəblə Qurban Ələsgərə qayğı ilə yanaşmışdır. Sonralar gənc Ələsgər ağanın qızı Səhnəbanuya məhəbbət bəsləsə də, bu sevda baş tutmamışdır. Kəblə Qurbanın qardaşı Pullu Məhərrəm Səhnəbanunu oğlu Mustafaya almışdır.

İlk məhəbbətin uğursuzluğu Ələsgərə ciddi mənəvi zərbə vurmuşdur. O, uzun illər bu hissin təsiri altında yaşayaraq ailə qurmamışdır. Sonralar Aşıq Kəlbəcərin Yanşaq kəndindən olan Anaxanımla ailə qurmuşdur. Bir neçə oğul-qız atası olan Aşıq Ələsgər Naxçıvan, Kəlbəcər, Laçın, Tovuz, Şəmkir və Borçalı ellərində ağır-ağır məclislər keçirmişdir. O, zəngin ədəbi irs yaratmış, Aşıq Hüseynalı, Aşıq Mustafa, Aşıq Nəcəf, Aşıq Əsəd... kimi qüdrətli saz-söz nümayəndələri yetirmişdir. Şəxsi həyatında ağrı-acılar yaşamış ustad aşıq 1926-cı ildə dünyasını dəyişmiş, doğma kəndində dəfn olunmuşdur.

***

Aşıq Ələsgər barədə ilk yazılı məlumat "Kavkaz" qəzetinin 1851-ci il tarixli birinci və ikinci saylarında verilmişdir. Y.N.Polonski adlı bir nəfər o zamanlar çox gənc olan Aşıq Ələsgərin söylədiyi "Əsli və Kərəm" dastanının ifasından heyranlıqla söhbət açmışdır. (2, s.212)

Ustadın həyatı barədə ilk dəfə olaraq Şəmsicədid adlı bir

şəxs məlumat vermişdir. Sonralar Azərbaycan folklorunun cəfakeş toplayıcısı Hümmət Əlizadə aşığın şeirlərini qələmə alaraq kitab şəklində çap etdirmişdir.

İkicildlik "Azərbaycan folkloru antologiyası"nın tərtibçisi Əhliman Axundov ustad sənətkarın həyat və yaradıcılığı mövzusunda namizədlik dissertasiyası yazmışdır. Qüdrətli aşığın zəngin əsərlərinin mövzu və ideyası, bədii-estetik xüsusiyyətləri haqqında Həmid Araslı, Feyzulla Qasımzadə, Məmməd Hüseyn Təhmasib kimi tədqiqatçılar, Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Osman Sarıvəlli... kimi sənətkarlar maraqlı fikirlər söyləmişlər.

Aşığın həyatı və əsərləri 60-cı illərdə onun nəvəsi İslam Ələsgər tərəfindən dissertasiya şəklində təsvir və təhlil olunmuşdur.

1972-ci ildə xalqımız böyük aşığın 150 illik yubileyini təntənə ilə qeyd etmişdir. Yubiley münasibətilə aşığın əsərlərinin ikicildliyi çapdan buraxılmışdır.

Müasirlərinin təsvirinə görə, Aşıq Ələsgər ucaboy, enli kürəkli, bədəncə sağlam bir şəxs olub. Qalın qara çatma qaşlar altındakı qara gözləri həyat eşqi ilə alışıb yanırmış. Dolu sifətində xətt saxlayan aşığın ağayana geyimi olmuşdur. O, əyninə uzun ətəkli arxalıq, üstündən çuxa geyinirmiş. Buxara papaqlı Ələsgər aşıqlıqla yanaşı dəyirmançılıq da etmiş, kənd təsərrüfatı peşələri ilə məşğul olub, ailəsini halallıqla dolandırmışdır.

Aşıq Ələsgər bu qədim sənətin incəliklərini dövrünün istedadlı saz-söz ustadı olan Aşıq Alıdan öyrənmişdir.

Aşıq Alı yetirməsinin yaddaş və yaradıcılıq qabiliyyətinə yüksək qiymət vermişdir. Rəvayətə görə, bir dəfə o, Ələsgəri el gözündə ucaltmaq üçün onunla deyişib guya özünü məğlub saymış, sazını yerə qoymuşdur. Lakin Aşıq Ələsgər özünün ləyaqət və mərifətini nümayiş etdirərək ustadının sazını ədəblə özünə qaytarmışdır. "Bir şəyird ki, ustadına kəm baxa, Onun gözlərinə ağ damar, damar", — deyə aşıq sənətinin ustad-şəyird ənənələrinə ləyaqətlə əməl etmişdir.

O, aşıq yaradıcılığının qoşma, gəraylı, təcnis, hərbə-zorba, divani, ustadnamə, gözəlləmə kimi ənənəvi şeir formaları ilə

yanaşı, dodaqdəyməz, diltərpənməz kimi şəkillərində orijinal nümunələr yaratmışdır.

Aşıq Ələsgərin şeirləri mövzu və ideya-bədii xüsusiyyətlərinə görə son dərəcə zəngin və rəngarəngdir.

Onun şeirlərində dağlar, dərələr, insan və insani gözəlliklər, elin-obanın bahar-yayında seyrangahı olan yaylaq vüsət və məhəbbətlə vəsf olunur:

*Könlüm qaranquş tək uçub qoynuna,*
*Gəzir hər yamacı, hər yanı, yaylaq!*
*Ruhum təzələnir, məst olur ürək,*
*Görəndə bu çağı, bu halı, yaylaq!*

*Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,*
*Bənövşə, qantəpər, qızlar örpəyi.*
*Qoyun mələşməsi, çoban tütəyi,*
*Çəkir uzaqlara xəyalı, yaylaq.*

*Qırxqız, Alaqaya, Çilgöz, Narışlar,*
*Muroy, Uzunyoxuş, Dəlidağ, Qoşqar!*
*Hansı oğul, deyin, sizi unudar?!*
*Düşərmi el sizdən aralı, yaylaq!*

*Ələsgər köynəkdən çıxartsın sazı,*
*Yenə cuşə gəlsin eşqi, avazı,*
*Tərifləsin allı-yaşıllı yazı,*
*Unutma bu böyük kamalı, yaylaq!*

Aşıq Ələsgər şeirləri saz-söz sənətimizin böyük bədii-fəlsəfi dəyərə malik nümunələrindəndir.

Bu şeirlərdə Azərbaycan gözəlləri təsvir olunur. Bu şeirlərdə vətən torpağının gözəllikləri tərənnüm edilir. Bu şeirlərdə xeyirxahlıq və gözəllik, dostluq və halallıq təbliğ olunur. Bu şeirlərdə insanı əzən, onu qul edən ictimai qanunlar, vəzifə sahibləri ifşa edilir. Bu şeirlərdə ilahi Yaradanın qüdrəti təsvirlənir. Bu şeirlərdə insan ulu Tanrının yaratdığı bir varlıq kimi yüksək dəyərləndirilir. Bu şeirlər insanı həyata bağlayır. Bu şeirlər insanı yaşamaqla yanaşı, yaşatmağa, özündən sonra xeyirxah izlər

qoymağa dəvət edir. Bu şeirlər insanı bir əlçim ömrü halallıqla yaşamağa səsləyir. Bu şeirlər insanda Ulu Yaradana bağlılığı daha da dərinləşdirir. Bu şeirlər insanı sevindirir, düşündürür, ovundurur, yaşadır, həyat eşqini artırır...

Ustad aşığın bu zəngin ədəbi irsinin bir qismini təbiət mövzulu şeirlər təşkil edir:

*Gözəllər seyrangahısan,*
*Görüm səni var ol, yaylaq!*
*Açılsın gülün, nərgizin,*
*Təzə mürğüzar ol, yaylaq!*

*Gözüm qaldı siyah teldə,*
*Bülbül öldü meyli güldə.*
*Kimsəm yoxdu qürbət eldə,*
*Sən mənə qəmxar ol, yaylaq!*

*Mən səni görəndən bəri,*
*Sinəm oldu qəm dəftəri.*
*Yazıq Aşıq Ələsgəri*
*Öldür, günahkar ol, yaylaq!*

Təbiət vətənin ən böyük sərvətidir. Təbiət insanın ən ülvi hisslər mənbəyidir. Təbiət ən müqəddəs duyğular qaynağıdır. Görünür, bu duyğu və duyumların təsiridir ki, insan təbiəti "ana təbiət" adlandırmışdır. İnsan bədii sözdə təbiəti həmişə tərənnüm və vəsf etmişdir. Bu baxımdan Aşıq Ələsgər şeirlərində təbiət mövzusunun da öz payı vardır.

Təbiət obrazlarını özünəxas üslubda canlandıran Aşıq Ələsgər misraları sanki insanla söhbətin sətirləri təsir bağışlayır:

*...Kəpəz, Muroy, Qonur — neçə dağlar var...*
*Üstünə nur yağsın, ay dəli Qoşqar!*
*Yayın ortasında yağdırırsan qar,*
*Səf çəkib üstündə sərdarın, dağlar!*

Heyrət doğuran cəhət budur ki, Aşıq Ələsgər bəzən bir şeirin ayrı-ayrı bəndlərində bir-birilə bağlı poetik mənzərələr yaradır. Və bu misralarda təsvirlənən mənzərələri rəsm edən olsa, dağların gözəllik və ülviyyətini, yaraşıq və əsrarəngizliyini əks

etdirən panoram peyzajlar silsiləsi yaranar. Ustad sənətkar konkret ifadə və yığcam misra-cümlələrlə dağların coğrafi-təbii cizgilərini verə bilmişdir:

*Elə ki, çən gəldi, qaraltdı qaşı,*
*Dumana qərq olur dağların başı.*
*Düşəndə gürg ilə kəlbin savaşı,*
*Uzaq çəkir qilü-qalların, dağlar!*

Aşığın o biri "Dağlar" şeiri ana yurdun-qədim Oğuz ellərinin büsatının, təbii zənginliklərinin təsviri və tərənnümü baxımından daha geniş informasiyalı sənət incisidir. "Dağlar" qoşmasında Dədə Ələsgər bir tərəfdən "süsənli, sünbüllü, lalalı dağların" qarlı təpəsini, həyat bağışlayan çeşmələrini dinləyicinin gözü qarşısında canlandırır, həm də elin məişəti, xalqın iqtisadi-coğrafi sərvətləri haqqında dünənimizdən bu günümüzə soraq yetirir:

*...Yazın bir ayıdı çox yaxşı çağın,*
*Kəsilməz çeşməndən gözəl yığnağın,*
*Axtarma motalın, yağın, qaymağın...*
*Zənbur çiçəyindən bal alı, dağlar.*

Dağların fəsildən-fəslə dəyişib başqalaşması, yayda gülzara dönüb payızda calalının dağılması təbii faktları şeirdə son dərəcə poetik bir vüsətlə verilir. Misraların fikri-estetik dəyəri insanı fəsil dəyişmələri prosesinin duyumlarını yaşamağa vadar edir. Oxucu-dinləyici xəyalında dağların dondan-dona girməsini, gah çiskin töküb, gah da duman eyləməsini bir söz boyakarı-sənətkarı kimi təsvirləyir:

*Yayın əvvəlində dönürsən xana,*
*Son ayda bənzərsən yetkin bostana,*
*Payızın zəhməri qoyur virana,*
*Dağıdır üstündən cəlalı, dağlar.*

*Gahdan çiskin tökər, gah duman eylər,*
*Gah gəlib-gedəni peşiman eylər,*
*Gahdan qeyzə gələr, nahaq qan eylər,*
*Dinləməz haramı, halalı dağlar.*

Dağlar əzəl gündən elin, xalqın vüqar və əzəmət timsalı

olub. Elin mərd igidləri çətin anlarda dağlara güvəniblər, dağlara arxalanıblar. El namusu, Vətən qeyrəti çəkən qaçaqlar dağlarda səngərləniblər, dağların quşqonmazlarında qartallaşıb düşmən üstünə şığıyıblar. Dağlar zaman-zaman mərdlik, təmkinlik timsalı sayılıb. Aşıq Ələsgər bu cəhəti də qoşmada bir beytlə ifadə etməyə müvəffəq olmuşdur:

*...Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

May ayında dağların bir özgə büsatı olur. Dağların zirvəsində əriyib, damla damlaya söykənən qar suları qovuşub birləşib gurlaşır. Boz-bulanıq sular çaylara qovuşub dəli bir axarla dəryalara qovuşur. Təbiət oyanır, təbiət elə bil bütünlüklə ağrı-acıdan silkinib çıxır. Aşıq Ələsgər bu təbiət dəyişmələrini bir sənətkar kimi duyub müşahidə edərək demişdir:

*Bir ay yarım nobahardan keçəndə,*
*Car olur köysündən sellərin, dağlar!*
*Çalxanır dəryalar, çığrışır qazlar,*
*Zəmzəm zümzüməli göllərin, dağlar!*

Qüdrətli aşıq təbiət mövzulu şeirin özündə belə ictimai-siyasi hadisələrə ustalıqla toxunaraq tarixi durum barədə məlumatı ustalıqla ifadə edib. Belə ki, ermənilərin müsəlmanlara, azərbaycanlılara qarşı soyqırımına işarə edən Aşıq Ələsgər soydaşlarımızın yaylaqları belə tərk etdiklərini ürək ağrısı ilə ellərə bəyan etmişdi:

*Hanı bu yaylaqda yaylayan ellər?!*
*Görəndə gözümdən car oldu sellər...*
*Seyr etmir köysündə türfə gözəllər,*
*Sancılmır buxağa güllərin, dağlar!*

*...Gözəllər çeşməndən götürmür abı,*
*Dad verə dəhanda kövsər şərabı.*
*Xaçpərəstlə düşdü bund inqilabı,*
*Onunçün bağlandı yolların, dağlar!*

Aşıq Ələsgərin iki cildliyini təşkil edən şeirlərin böyük bir qismi gözəllik mövzusundadır. Gözəllik fəlsəfi-estetik kateqoriya kimi Aşığın şeirlərində bir özgə ülviyyət kəsb etmişdir.

Gözəllik həyat və təbiətin bütün harmonik elementlərində mövcuddur. Və bunları görüb ümumiləşdirmək, poetik baxımdan mənalandırıb təsvir, tərənnüm və təbliğ etmək özü İlahidən verilən bir istedaddır. Ulu Yaradan Dədə Ələsgərə də belə bir istedad, bacarıq, qabiliyyət bağışlamışdır. Onun şeirlərində ümumiyyətlə, gözəllik başlıca estetik faktor kimi çıxış edir. Özü də bu gözəllik həm insani-cismani məzmunludur, həm də mənəvi-əxlaqi keyfiyyətlərdən doğur.

Aşığın gözəllik idealını təşkil edən tərəflər sırasında insani gözəllik xüsusi yer tutur.

Aşıq Ələsgərin gəraylı və qoşmalarında konkret Azərbaycan gözəllərinin zahiri və mənəvi gözəlliyi təsvir olunmuşdur. Bununla belə ustadın adsız gözəllərin təsvirinə həsr olunmuş əsərləri də vardır. Həmin şeirlərdə, sözün həqiqi mənasında, gözəlliyin bütün incəlik və əlamətlərini özündə əks etdirən qızgəlin milli geyimlərdə bütün dəqiqliyi ilə təsvirlənmişdir:

*... Bullur buxaq, bəyaz gərdən,*
*Ağlımı aparır sərdən.*
*Yaxasına hərdən-hərdən*
*İnci, sədəf düzən gözəl!*

*...Gümüş kəmər, incə belli,*
*Ağ biləkli, nazik əlli,*
*Ay qabaqlı, siyah telli,*
*Ürəyimi üzən gözəl!*

Deməli, Aşıq Ələsgərin gözəllik kriteriyasının məzmununda aşağıdakı tərəflər xüsusi yer tutmuşdur: büllur buxaq, bəyaz bədən, gümüş kəmərli bel, nazik bel, zərif əllər, ağ üz, qara saçlar.

Təbii ki, bunlar insan gözəlliyinin məzmununu bütövlükdə əks etmir. Bədii detallarda dəqiqliyə xüsusi əhəmiyyət verən ustad Ələsgər gözəlliyin ən kiçik tərəflərini belə unutmamış, şeirdən-şeirə keçdikcə gözəllik haqqında anlamını obrazlı şəkildə açıqlamışdır. Bu baxımdan onun konkret gözəllərə həsr olunmuş şeirləri diqqəti çəkir:

*Həsrətini çəkə-çəkə,*
*Dərdim yetdi yüzə, Kəklik!*
*Qız, sən Allahı sevərsən,*
*Ürbənd tutma üzə, Kəklik!*

*Dostdan dosta bu nə fənddi,*
*Zülfün boynuma kəmənddi?!*
*Dişin dürdü, dilin qənddi*
*Dodaqların məzə, Kəklik!*

*Geydiyin yaşıl, əlvandı,*
*Elədiyin nahaq qandı.*
*Ələsgər sənə qurbandı,*
*Sən gələndə bizə, Kəklik!*

Aşıq Ələsgərin qoşma və gəraylılarının böyük bir qismi ayrı-ayrı konkret gözəllərin vəsfinə həsr olunmuşdur. Bu baxımdan "Kəklik", "Gülxanım", "Maral", "Ceyran", "Bəyistan", "Yaraşır" və s. şeirlər bu gün artıq dillər əzbəridir.

Bu əsərlər Oğuz torpaqlarında doğulub böyümüş, lalələrdən allıq, bənövşədən ətirlilik əxz etmiş Azərbaycan gözəlləridir. Qara gözlü, qələm qaşlı, alma yanaqlı bu gözəllər aşığın sazında-sözündə bütün zəriflik və ülviyyəti ilə təsvir-tərənnüm olunmuşlar.

# ELLƏRDƏ SÖHBƏTİ QALAN SƏNƏTKAR

## *(Aşıq Ələsgərin ustadnamələri barədə)*

Azərbaycan ədəbiyatı tarixində sözdən bir zərgər dəqiqliyi ilə istifadə edən yüzlərlə şair, yazıçı, dramaturq, aşıq adı bəllidir. Onlar sözə İlahi bir nemət kimi baxmışlar. Sözün su kimi lətafəti olduğunu etiraf etmiş, sözü insanın nüfuzunu artıran qüdrətli bir vasitə bilmişlər. Az sözlə böyük-böyük kitablar üçün məzmun olan dərin fikirlər ifadə edən sənətkarlar sırasında Aşıq Ələsgərin öz yeri var.

***

Ustadnamə aşıq şeirinin xüsusi bir növüdür. Əslində qoşma formasında olan ustadnamə qoşma kimi qafiyələnir. Heca ölçü-biçimində də eynidir. Fərq təkcə ideya-məzmundadır. Ustadnamədə ustad aşıqlar bəşəriyyətin keçdiyi yoldan-təcrübədən hansısa mətləbi, fikri alıb, onu yığcam, konkret cümlələrlə, fəlsəfi-həkimanə bir üslubda dinləyici-tamaşaçılarına çatdırmışlar. Əslində ustad məktubu, ustad sözü mənasında işlənən ustadnamələr bir növ hikmət məktəbinin kiçik "dərslikləri-kitabları" sayıla bilər.

Aşıq Ələsgərin tarixi xidməti budur ki, o, aşıq yaradıcılığı salnaməsində ilkin olaraq bu sənətin özünün qayda-qanunlarını, ənənə və prinsiplərini bədii şəkildə ümumiləşdirməklə bir növ aşıqlığın poetik nizamnaməsini yaratmışdır.

Ustad Ələsgər aşıqlığın səyyar bir sənət olmasını qabarıq şəkildə ifadə etməklə bu sənətə meyl edənlərin qarşısında ilk tələbi qoymuşdur: aşıq dərin bilik, kamal sahibi olmalıdır. Bu da azdır, aşıq ədəb-ərkan yiyəsi olmalı, oturub durmaqda insanlara nümunə göstərməlidir.

Dədə Ələsgər bu tələblərdən sonra aşıq üçün vacib olan başqa prinsipləri sadalayır: aşıq həqiqətdən mətləb qandırmalıdır. Aşıq nəfsini öldürməlidir. Aşıq danışdığı sözün qədrini bilməli, obrazlı-müəmmalı sözü ilə dinləyicisini düşündürməlidir.

Beləliklə, Aşıq ustadnamənin hər bəndində, hər bəndin hər

sətrində bir həqiqəti, bir fikri, bir sənət kodeksini açıb-aşkarlamış, bir növ bədii təhlilini vermişdir:

*Aşıq olub diyar-diyar gəzənin,*
*Əzəl başda pürkamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Danışdığı sözün qiymətin bilə,*
*Kəlməsindən ləlü gövhər süzülə,*
*Məcazı danışa, məcazı gülə,*
*Tamam sözü müəmmalı gərəkdi.*

*Arif ola, eyham ilə söz qana,*
*Naməhrəmdən şərm eyləyə, utana,*
*Saat kimi meyli haqqa dolana,*
*Doğru qəlbi, doğru yolu gərəkdi.*

*Ələsgər, haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə,*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdi.*

Aşığın "Olmaz-olmaz" rədifli ustadnaməsi də özünün fəlsəfi-etik məzmunu, fikri-estetik dəyəri ilə diqqətəlayiqdir: Hər ağacdan sandal, hər yarpaqdan gül olmaz, deyən ustad aşığın nisyəsinə, kürdün ilqarına inanmamağı tövsiyə edir. Məclislər yola salıb, obalar dolaşmış dədə sənətkar müşahidələrini, gördüklərini ümumiləşdirərək demişdir:

*Zikirsiz mömini şeytan aldadar,*
*Sayqısız iyidi düşman aldadar,*
*Ağılsız cahalı kirşan aldadar,*
*Günü keçmiş qarı qız olmaz-olmaz.*